## Elm ocağı - kitabxanadır

**Bu günkü müsahibim Səməd Vurğun adına Sumqayıt şəhər mərkəzləşdirilmiş kitabxananın metodika şöbəsinin müdiri Təranə xanım Hüsiyevadır. Suallara keçməzdən əvvəl bir məsələyə toxunmaq istərdim.**

**HAŞİYƏ:** Respublikamız ildən-ilə inkişaf edir. Bu, hər bir azərbaycanlının fəxarət hissinə səbəb olur. Sumqayıt da Azərbaycanın gündən-günə gözəlləşən diyarına çevrilib və 74 il ərzində ləyaqətli və şərəfli yol keçib. Bu yolda iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, idman sahələrində çalışan zəhmətkeş insanların əməyi böyük olub. Hər il Respublikada kimyaçı, müəllim, gəncələr, neftçi, həkim və sair peşələrin peşə bayramları keçirilir. Bu gözəl ənənədir. Lakin bir vacib məsələyə, bir ziyalı kimi toxunmaq istərdim. Respublikada elə adam tapmaq olmaz ki, vəzifəsindən, titulundan asılı olmayaraq, yolunu bir dəfə də olsun kitabxanaya salmasın. Hamı kitabxananı elm ocağı adlandırır. Gertsenin yaxşı bir sözü var "Kitab yaşlı nəslin gənc nəslə vəsiyyətidir". Milyonlarla insanlara mədəni xidmət göstərən, kitabın, elmin təbliği ilə məşğul olan kitabxanaçıların niyə peşə bayramı olmasın? Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu məsələni prezident aparatı qarşısında qaldırmalı və mədəniyyətimizin bir qolu olan "Kitabxana günü"nün təsis olmasına çalışmalıdırlar. Bu təkçə kitabxana işçilərin əməyinə verilən qiymətlə yanaşı, milyonlarla oxucuların da sevincunə səbəb olar.

# Sumqayıtda böyük, qeyri - adi kitabxananın tikilməsi vacibdir



**-Təranə xanım, yəqin kitabxana gününün elan olunması sizin də ürəyinizcə olar, eləmi?**

-Siz nə danışırsınız? Əlbəttə! Bu günü mən deyərdin, bütün Azərbaycan kitabxanaçıların ürəyindən olardı. Başqa peşələrin bayramlarında çox vaxt bizi də dəvət edirlər. Məmnuniyyətlə iştirak edirik. Hərdən yaxşı mənada qısqanclıq da yaranır. Axı niyə kitabxana günü qeyd olunmasın. Bizim qapımızı minlərlə, bəlkə on minlərlə insan açır, elmin sirlərinə bələd olur, öz intelektual potensiallarını artırırlar. Gənc oxucular ali məktəbə daxil olanda bilsəniz necə də sevinirik. Qaldırdığınız məsələ çox aktualdır. Bu haqda ciddi düşünmək lazımdır.

**-Siz yəqin ki, Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakultəsini bitirmisiniz, eledirmi?**

-Elədir. Ancaq etiraf edim ki, sizin kimi jurnalist olmaq istəyirdim. Test üsulu ilə imtahan verirdik. Balım çatışmadı, kitabxanaçılıq fakultəsinə daxil oldum, peşman da deyiləm.

**-Ola bilsin, hər hansı bir əsəri oxumusunuz, sonra onu ekranlaşdırıblar. Sizi hansı razı salır.**

-Əlbəttə ki, kitab. Film nə qədər yaxşı alınsa belə, kitabda olan bəzi hadisələr, fraqmentlər kəsilir. Məsələn Fərman Kərimzadənin "Axırıncı aşırım" filmi. Kino gözəl çəkilib. Aktyorlar da rollarını məharətlə ifadə edirlər. Lakin kitabda olan bəzi süjetlər ekranda özünə yer tapmayıb. Və yaxud "Dəli Kür" filmi. Yəqin ki, mənimlə razılaşarsınız?

**-Tamamilə sizinlə şərikəm.**

-Sağ olun.

**-Təranə xanım elə əsər olubmu ki, sizi ağlatsın və yaxud düşündürsün?**

-Çox olub. Umumiyyətlə kitabxanaya daxil olan ədəbiyyatı oxumağa çalışırıq. Çünki oxucu əldə etmək istədiyi kitabın nədən bəhs etdiyini soruşanda gərək qarşısında pərt olmayasan. Düzdür, bütün kitabları oxumaq qeyri-mümkündür. Lakin onun qısa annotasiyası haqqında məlumat veririk. Qaldı mənim özümə, mən sonu faciə ilə bitən əsərləri çox vaxt oxumuram, mənə pis təsir, elə vaxtlar olur ki, aylarla o əsər haqqında düşünürəm.

**-Axı elə əsər var ki, sonu faciə ilə bitsə də, mən məhəbbət mövzularında yazılan əsərləri nəzərdə tuturam, oxucunun incə hisslərini, təmiz duyğularını oyadır, sevgiyə, məhəbbətə münasibəti müsbət mənada dəyişir.**

-Sizinlə razıyam. Hər halda əsərin sonluğunun xoş notlar üzərində bitməsinin tərəfdarıyam.

**-Hər bir oxucunun əsər seçməkdə öz hüququ var, siz də həmçinin. İnsan nə qədər çox ədəbiyyat oxusa, onun söz ehtiyatı da çox olar, doğrudurmu?**

-Şübhəsiz. Mən çox oxucularla ünsiyyətdə olmuşam. Söhbət əsnasında ayırd edə bilmişəm, bir oxucu az, digəri isə çox oxuyub. Nədən? Nitqindən, söz ehtiyatından.

**-Kitabxananın keçirdiyi tədbirlər çox olur. Bizi də dəvət edirlər. Sizi çıxış edənlər arasında az-az görürük, Niyə?**

-Tədbirlərin hazırlanmasında, təşkilatı işlərdə çalışıram fəal iştirak edim. Düzdür, az-az çıxış edirəm. Böyük auditoriya qarşısında çıxış etməkdən çəkinirəm, demək istəmirəm ki, bacarmaram, bu insandan məsuliyyət tələb edir. Mən məsuliyyətin nə olduğunu bilirəm.

**-Dünyada 150 canlı kitabxana var. Orada kitab yox, dahilərin stulda əyləşdikləri kiçik heykəlləri quraşdırılıb. Elmin hər hansı bir dahisi ilə ünsiyyət yaratmaq üçün oxucu həmin cansız dahinin qarşısında əyləşir, sanki onunla canlı dialoq aparır, dəftərində qeydlər edir. Çox vaxt isə səssiz-səmirsiz oturur, dinib-danışmır və sonra durub, çıxıb gedir. Qəribədir, elə deyilmi?**

-Son dərəcə qəribədir. Mənə elə gəlir ki, əgər oxucu kimin qarşısında əyləşirsə, mütləq onun əsərlərindən xəbəri olmamış deyil. İkincisi isə eramızdan əvvəl və yaxud sonra olan dünya korifeyləri qarşısında oturmaqla bəlkə də ruhları təzələnir, düşüncələrində yeni fikirlər, ideyalar əmələ gəlir. Ola bilər. Bu mənim subyektiv fikrimdir. Dərindən təsvir edə bilmərəm. Gərək özün onu həyatında sınayasan.

**-Akademik D.Lixaxov deyirdi ki, bütün dünya ədəbiyyatı bəşəriyyəti birləşdirməlidir. Yer kürəsində kitab məhv olarsa, sivilizasiya çökər, çökdükcə isə ölkələr uçuruma yuvarlanar.**

-Doğru fikirdir. Kitabsız inkişaf yoxdur. Yeni texnologiyaların, texnukanın bu günə çatmasında bünövrəsinin daşı kitab olub, elmi ixtiralar olub. Onların hamısı da kitabxanalardan gəlib keçib.

**-Amerikada kitabxanaların sayı dünyada olan "Makdonalds"- ların sayından çoxdur. Təkcə Vaşinqtonda Konqresin kitabxanasında 158 milyon kitab var.**

-Amerika böyük dövlətdir. Buna təəccüblənmək lazım deyil. Dünyanın bir çox ölkələrində, məsələn İngiltərədə. İtaliyada, Sloveniyada böyük, əzəmətli, möhtəşəm kitabxanalar var. Kitabxana mədəni irsin aparıcı bir qoludur. Tarix necə yaranır? Həmin kitablardan. Almaniyada nasist partiyasının hakimiyyəti dövründə Marksın, Engelsin. Freydin. Hegelin, Bekonun, Hötenin, Leninin və sair filosof və yazıçıların əsərləri yandırılırdı. Nəticədə nə oldu? Faşizm məhv oldu. Həmin kitablar isə dünyanın müxtəlif kitabxanalarında, o çümlədən bizdə rəflərdədirlər və oxucular onlardan istifadə edirlər.

Mən və təkcə mən yox, mənimlə çalışan həmkarlarım. Sumqayıtın bir çox ziyalıları doğma şəhərimizdə qeyri-adi, möhtəşəm bir kitabxananın tikilməsinin arzusundayıq. İnanıram ki, gec-tez bu məsələ öz həllini tapacaqdır.

**-İnternet, telefon oxucuların sayına təsir edirmi?**

-Sözsüz. Bu gün yeni texnologiyalar inkişafdadır. Bunu inkar etmək düzgün olmazdı. Amma gəlin etiraf edək ki, gənclərimizin çoxusu internetdən düzgün istifadə etmirlər. Müxtəlif tərbiyəsiz filmlərə, başgicəlləndirici, qorxulu oyunlara çox aludə olurlar. Onlar bir şeyi anlamırlar ki, bütün bu gördükləri onların intelektual potensialına yox, psixoloji sarsıntılara gətirib çıxaracaq.

Bununla demək istəmirəm ki, internet bağlanılmalıdır. Bu, böyük siyasi səhv olardı. İnternetdən səmərəli istifadə etmək lazımdır. Biliyi, savadı, dünyada gedən içtimai-siyasi prosesləri izləmək üçün gözəl bir mənbədir. Amma onu da deyim ki, internetdən kitab oxumağın əleyhinəyəm. Canlı kitabla ünsiyyət daha maraqlıdır.

**-Belə çıxır ki, siz internetdən kitab oxumursunuz, eləmi?**

-Bəli. Kitabxanamızda minlərlə bir-birindən maraqlı elmi, bədii, texniki kitab var. Onları kənara qoysam, demək, kitaba xəyanət etmiş olaram. İnternetdə, telefonlarda olanların hamısı yeni texnologiya inkişaf edəndə, onlar pozulacaq, itəcək, kitabların ömrü isə əbədidir.

**-Siz jurnalist olmaq istəyirdiniz. Kitabxanaçı olsanız da, ilk qələm təcrübənizi xatırlayırsınızmı?**

-Bəli. Məni işə Sveta Ağayeva qəbul etdi. Həmin vaxt Məmməd Arazın yubileyi keçirilirdi. Sveta xanım məni yanına dəvət edib, dedi ki, yubileylə bağlı ssenarini yazmağı sənə həvalə edirəm. Çox duruxdum. İndiyəcən ssenari yazmamışdım axı. Bu, mənim üçün ilk sınaq oldu. Böyük bir məsuliyyətlə bu işə yanaşdım. Bu mənim üçün ilk sınaq idi. Sınaqdan uğurla keçdim. Sonra yavaş-yavaş əlim öyrəndi.

**-Ən qədim kitabxanalardan biri Misirdə olub. Misirin limanlarına yan alan gəmilərdən ilk yük iri çeşidlərdə yerləşdiriləm kitablar olub. Onlar həmin an Misirin kitabxanaları arasında paylanılıb.**

-Bu kitaba hörmətdən irəli gəlir. Misir kitabxanalarında təkcə adi kitablar deyil, burada müxtəlif əsrlərdə yazılmış qədim tarixi əlyazmaları, İslam dini ilə bağlı elmi əsərlər, aparılan müharibələrin xronologiyası, hökmdarların fərmanları və s. Bir sözlə, kitab millətin böyük qənimətidir.

**-Qədim zamanlarda kitablara qarşı münasibət müxtəlif olub, düzdürmü?**

-Doğrudur. Siz tarixdən danışdınız, mən də bir misal çəkmək istəyirəm. Birinci minillikdə Səlahəddin Əyyubi şəhərlərdən birini işğal edəndə, həmin şəhərin hökmdarı var-dövləti yığıb qaçmışdı. Anbarlarda isə 1 milyon 400 min kitab qalmışdır. Səlahəddin bunu biləndə böyük kitabxana tikdirir, kitabları sistemləşdirir və alimləri bu işə cəlb edir. Görürsünüzmü, ağıllı hökmdarlar kitablara həmişə yüksək qiymət veriblər.

**-Kitab oxunuşu hardan başlanılmalıdır?**

-Baxcadan. Körpələrə nağıl danışmaq, şəkil üzərində rəvayətlər quraşdırmaq, onlara əlifba öyrətmək mütləqdir. Düzdür, bu sahədə iş aparılır. Lakin bu sahədə diqqəti və qayğını gücləndirmək vacibdir. Orta məktəblərdə olan kitabxanarında üzərinə böyük yük düşür.

**-Arzunuz?**

-Mən nə istərdim? Gəlin Bank sistemini götürək. Bütün Azərbaycanda olan Banklar kompüterləşdirilib və fəal surətdə operativ işləyirlər. Mən bunu alqışlayıram. Bəs niyə kitabxanalar bu sistemə keçməsinlər? Bunun üzərində ciddi düşünmək lazımdır.



**Eyruz MƏMMƏDOV,**
**Respublikanın**
**əməkdar jurnalisti**